


چهار شنبه 08 اردیبهشت 1395 - 11:53

# Kommersant” Sarkisyann danqlardan qamasnn sirlrini ad“

Rusiyann nfuzlu v indiy qdr Qaraba nizamalanmas prosesinin bir ox detallarn aqlayan .“Kommersant” qzeti “Ermnistan Qarabala danqlara getmir” balql nvbti mqal drc edib

**AranNews-** Məqalədə qeyd olunur ki, Lavrov doğurdan da, Yerevana son səfəri zamanı beynalxalq vasitəçilərə razılaşdırılımış ATƏT-in təklif etdiyi “Madrid prinsipləri”nin yenilənmiş versiyasını təqdim edib. Amma bu səfərdən iki gün sona Ermənistan prezidentinin “Blumberq” .agentliyinə müsahibəsi göstərib ki, Yerevan danışıqlara hazır deyil

Kommersant” qeyd edib ki, Yerevanın bu davranışına baxmayaraq Bakı danışıqlara hazır“ .olduğunu nümayiş etdirir

Kommersant” qəzeti Ermənistan Müdafiə Nazirliyində generalların istefaya göndərilməsi ilə» bağlı da maraqlı məlumatlar verib. Qəzet Rusiya Müdafiə Nazirliyinə yaxın mənbələrə istinadla xəbər verir ki, Ermənistan Müdafiə Nazirliyindəki istefalar Dağlıq Qarabağdakı son hadisələrlə birbaşa əlaqəlidir. General Arşak Karapetyan onun tabeliyində olanların rəhbərliyə Azərbaycanın təmas xəttinə ağır silahların (xüsusən TOS-1A sistemlərinin) gətirməsini əvvəlcədən məlumat verə bilməməsi ilə əlaqədar vəzifədən uzaqlaşdırılıb. Bu sistemlərin işə salınması erməni hərbi .qulluqçularının böyük itkilər verməsinə səbəb olub

Bundan başqa Qarabağ xəstəxanalarında yanıqların müalicəsi üçün vasitələr olmayıb. Ona görə, .yanıq əleyhinə vasitələri təcili olaraq Moskvadan gətirmək lazım olub

Kommersant”-ın məlumatına görə general Alik Mirzəbekyanı hərbi qulluqçuların təchizatında» buraxılmş səhvlərə görə vəzifədən çıxarıblar, Komitas Muradyan isə hərbi əməliyyatların .başalmasından sonra orduda yaranmış problemlərə görə istefaya göndəriblər

Qəzet yazır ki, Kreml hələ ki, Yerevanın mövqeyini şərh etimir. Bazar ertəsi prezident Putinin mətbuat katibi Qarabağ ətrafında yaranmış vəziyyətlə bağlı yalnız “Qarabağ ətrafındakı vəziyyət .çox kövrəkdir” deməklə kiafyətlənib

Kommersant” qeyd edir ki, Yerevanın Dağlıq Qarabağdakı indiki status-kvonu saxlamağa“ çalışması və heç bir mübadiləyə getməməsi, onun başlıca starteji müttəfiqi Rusiyanı çox çətin vəziyyətdə qoyur. Bu Moskvanın təşəbbüsü ilə başlayan danışılqar prosesinin perspektivini sual .altında qoyur

Moskva və Yerevan arasındakı münasibətlər quyruğun itə təsir göstərməsi vəziyyətinə bənzəyir.“ Amma fikirləşmək lazım deyil ki, SSRİ zamanında olduğu kimi Moskva kəndirləri dartaraq keçmiş sovet respublikalarının liderlərini tam nəzarətdə saxlayır. Bu liderlərin aşmağı qeyri-mümkün hesab etdikləri “qırmızı xəttlər” barədə öz təsəvvürləri var” – deyə “Kommersant”-a .açıqlamasında Serj Sarkisyanın mövqeyini şərh edən politoloq Sergey Markedonov bildirib

Ekspertin fikirincə, Serj Sarkisyanın son bəyanatları aprelin əvvəlindəki hərbi əməliyyatlarda itkilərdən sonra cəmiyyətin əvvəlki vaxtla müqayisədə daha radikal əhval-ruhiyyədə olması, güzəştlərə getməyə hazır olmaması ilə şərtlənib: “Bu vəziyyətdə isə siyasətçi danışıqlara razılıq verərək intihara getməyəcək. Sülh prosesinin bərpası üçün güclü motivasiya alzımdır. Bu isə .”hələlik yoxdur


قدرت گرفته از پرتال شمس - ITShams.ir